XXI əsrin enerji təhlükəsizliyi tarixində Azərbaycanın və Türkiyənin imzası – TANAP



SOCAR Turkey Enerji A.Ş.-dən işgüzar səfərə dəvət alıb proqramla tanış olandan sonra bu yolçuluğumuzun çox maraqlı məqamlar və xatirələrlə yadda qalacağına əmin idim. Proqramda Cənub Qaz Dəhlizinin ən mühüm seqmenti olan Trans-Anadolu Təbii Qaz Boru Kəməri layihəsi (TANAP), Azərbaycana məxsus STAR Neft Emalı Zavodu və "Petkim" neft-kimya kompleksi ilə tanışlıq, bu üç qurumun rəhbərlərinin Azərbaycanın media nümayəndələri üçün mətbuat konfransları haqqında oxuyanda düşüncəmə hakim olan ilk fikir bundan ibarət idi ki, 22 nəfərlik jurnalist heyətinin bura dəvət olunmasında məqsəd ölkəmizin əsas pay sahibi olduğu bu müəssisələrin fəaliyyəti, respublikamızın iqtisadi potensialının gücləndirməsində rolu, maliyyə imkanlarımızın artırılmasına verə biləcəkləri töhfələr və dünya iqtisadiyyatına inteqrasiya sahəsində atılan addımlarla bizi tanış etmək və media vasitəsilə ictimaiyyətə hesabat verməkdir.

Doğrudur, istər Azərbaycan və Türkiyə, istərsə də dünya mətbuatı qardaş ölkədə birbaşa Azərbaycanın iştirakı ilə həyata keçirilmiş bu layihələr haqqında kifayət qədər informasiya, şərh və səlahiyyətli şəxslərin açıqlamalarını dərc edib. Lakin bütün bunlara baxmayaraq, bəzən Azərbaycanın iqtisadi tərəqqisini heç cür qəbul etmək istəməyən xarici və daxili qüvvələr yeri gəldi-gəlmədi dünyaya səs salan bu layihələr haqqında obyektivlikdən uzaq, xalqı çaşdırmağa hədəflənən qara piarla məşğul olurlar. Bu mənada, yazımızın əvvəlində adlarını çəkdiyimiz layihələrin gerçəkləşdirildiyi İstanbul və İzmir şəhərlərinə səfər bizə əldə edilən nailiyyətləri gözümüzlə görüb sözümüzlə xalqımıza çatdırmağa imkan verirdi.

Düşünülmüş siyasət, güclü iradə və Türkiyə-Azərbaycan qardaşlığı

Yaxın tarix olduğu üçün yəqin çoxları yaxşı xatırlayır ki, əsas ideya müəlliflərindən və təşəbbüskarlarından biri Azərbaycan Prezidenti İlham Əliyev olan Cənub Qaz Dəhlizi layihəsinin reallaşması təkcə öz təbii qaz ehtiyatlarının dünya bazarında müstəqil satışında maraqlı olan Cənubi Qafqazın əsas neft-qaz ölkəsi Azərbaycan deyildi. Başda ABŞ olmaqla Qərbin özü də Avropanın enerji təhlükəsizliyi kontekstində Cənub Qaz Dəhlizi layihəsinə xüsusi önəm verirdi və ona hər cür siyasi və maliyyə dəstəyi göstərəcəyini vəd edirdi. Lakin sözdə ciddi vədlərin verilməsinə baxmayaraq, "Natural Gas Europa"nın hesablamalarına görə dəyəri 40 milyard ABŞ dolları həcmində olan Cənub Qaz Dəhlizi meqalayihəsinin reallaşmasına gəldikdə, bəzi ölkələrin layihəni gözdən salmaq üçün apardıqları qara piar kampaniyaları, bir çox Avropa dövlətlərinin konkret addım atmasına mane olmağa başladı. Xüsusilə, qaz kəmərinin qardaş Türkiyə ərazisindən keçən əsas hissəsinin – yekun investisiya qərarı qəbul ediləndə ümumi xərcləri 11,7 milyard dollar həcmində qiymətləndirilən TANAP layihəsinin maliyyələşdirilməsi ətrafında müzakirələr uzanır və layihənin həyata keçirilməsini sual altında qoyurdu.

2015-ci il martın 17-də Qarsda Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin iştirakı ilə təməli qoyulan, 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində artıq reallığa çevrilən TANAP-ın açılış mərasimindəki çıxışında Azərbaycan Prezidenti İlham Əliyev bunu özünəməxsus şəkildə belə vurğuladı: **"Azərbaycan qazının Avropa qitəsinə böyük həcmdə ötürülməsi haqqında son illər ərzində bir çox müzakirələr aparılmış və bir çox tədbirlər keçirilmişdir. Ancaq əfsuslar olsun ki, onların heç bir nəticəsi olmamışdır. Belə olan halda Türkiyə və Azərbaycan qərara gəldilər ki, biz özümüz yeni bir layihəni irəli sürək və bunun adını da biz birlikdə qoyduq – TANAP".**

Eyni mətləbə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan da toxundu: **"TANAP ilk dəfə gündəmə gələndə bəzi dairələr, – İlham qardaşım bunu çox yaxşı bilir, – buna xülya dedilər, həyata keçirilməsi mümkün deyil dedilər. Amma biz səbir etdik, dözüm göstərdik. Doğru bildiyimiz yolla qətiyyətlə irəlilədik və israr etdik. Nəticədə isə bu gün bərabər yaşadığımız qürur tablosuna şahid oluruq".**

İki ölkə rəhbərinin qətiyyəti və iradəsi sayəsində reallaşan və hazırda Azərbaycan qazını Avropaya nəql etmək üçün hazır vəziyyətə gətirilən Cənub Qaz Dəhlizinin ən mühüm halqası olan TANAP-ın, ilk növbədə Türkiyə, daha sonra Avropanın enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsinə çevrilməsi artıq heç kimdə şübhə doğurmur.

Səfərimizin ilk işgüzar günü səhər saat 8-də qonaq olduğumuz otelin konfrans salonunda **TANAP-ın baş direktoru Saltuk Düzyol** layihə ilə bağlı bütün detalları açıqlamağa hazır olduğunu bildirərək, TANAP-ın gerçəkləşməsinin ən maraqlı məqamlarını və sözün əsl mənasında, bir Azərbaycan vətəndaşı olaraq bizdə qürur doğuran tarixi anları dilə gətirdi. Baş direktor vurğuladı ki, TANAP Azərbaycan Respublikasını yeni bazarlara çıxararaq onun iqtisadi potensialının gücləndirməsini, qardaş Türkiyənin təbii qaz təchizatının artırılmasını və enerji mənbələrinin şaxələndirilməsini, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə töhfə verməyi hədəfləyir.

TANAP layihəsinin Azərbaycan üçün üstünlüklərinə gəldikdə isə onlar daha geniş şərh edilərək göstərildi ki, TANAP-ın əsas halqalarından biri olduğu Cənub Qaz Dəhlizi (CQD) Azərbaycan üçün əlavə gəlir mənbəyi olaraq, qarşıdakı illərdə ölkəyə on milyardlarla dollar gəlir gətirəcək. Böyük maliyyə xərcləri sərf edilən belə bir meqa layihənin vacibliyi isə ondan irəli gəlir ki, CQD boru kəmərlərinin inşası Xəzərin qapalı hövzəsində olan Azərbaycan təbii qazının dünya bazarlarına çıxarılması üçün geniş imkanlar açdı. Əlbəttə, sadəcə bir bazarın tələbatından tam asılı vəziyyətə düşməmək üçün hədəf bazarlarının şaxələnməsi çox vacib idi. TANAP-ın əhəmiyyəti də ondadır ki, bu boru kəməri Azərbaycan qazının tək Türkiyə və ya Avropaya deyil, hər iki istiqamətə çatdırılması üçün şərait yaradır. Prezident İlham Əliyev məhz bu məqamı əsas tutaraq bildirir: **"Bu tarixi nailiyyət bizə imkan verəcək ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılsın".**

Azərbaycan və Türkiyə dostluğu regional iqtisadi birliyin təməl daşıdır söyləyən baş direktor daha sonra dedi: "Enerji daşıyıcıları ilə zəngin olan Azərbaycan qapalı hövzədə yerləşdiyi üçün dünya bazarlarına birbaşa çıxışı yoxdur. Türkiyənin isə enerji ehtiyatları məhdud olsa da, okeanlara çıxışı və Avropa bazarı ilə birbaşa əlaqəsi var. Bu iki gücün əmələ gətirdiyi möhtəşəm iqtisadi potensial ölkələrimizin və xalqlarımızın rifahına xidmət edəcək".

TANAP vasitəsilə Türkiyənin dost və qardaş ölkə Azərbaycan ilə Avropa Birliyi arasında bir enerji dəhlizi açmaq istiqamətində mühüm addım atdığını bildirən Saltuk Düzyol onu da vurğuladı ki, TANAP Azərbaycan və Türkiyə arasındakı tarixi dostluğu ticarət sahəsində də gücləndirmiş oldu: "Türkiyənin enerji sektorunun gücünə güc qatacaq TANAP vasitəsilə dost və qardaş ölkə Azərbaycan da Avropa Birliyinin mühüm qaz tədarükçülərindən birinə çevriləcək."

Mühüm məqamlardan biri də ondan ibarətdir ki, TANAP Azərbaycanın xaricdə həyata keçirdiyi ən böyük investisiya layihəsidir və bunun sayəsində ölkəmiz təkcə qazın hasilatından yox, həm də TANAP-ın boru kəməri kimi istismarından gəlir götürəcək. Üçüncü tərəflər TANAP üzrə öz qazını nəql etmək qərarına gəlsələr, Azərbaycan bundan digər pay sahiblərindən daha çox mənfəət götürəcək. Çünki Azərbaycan bu layihədə 58 faiz paya sahibdir və TANAP-ı gerçəkləşdirməklə bütün dünyaya nümayiş etdirmişdir ki, biz nəinki ölkə daxilində, həm də xaricdə bu qədər mürəkkəb layihələri maksimum sürət və səmərə ilə, hətta xərclərin faizinə qənaət etməklə ərsəyə gətirə bilirik.

TANAP layihəsi mahiyyət etibarı ilə ümummilli lider Heydər Əliyevin istər Türkiyədə, istərsə də Azərbaycanda dillər əzbəri olan "Bir millət, iki dövlət" deyiminin gerçək fəlsəfi anlamını özündə ehtiva edərək Azərbaycan və Türkiyənin iqtisadi əməkdaşlığını gücləndirməklə regionda böyük və güclü olan bir iqtisadi birlik əmələ gətirir. Şübhəsiz, bunun özü geosiyasi nöqteyi-nəzərdən çox mühüm əhəmiyyət kəsb edir və Azərbaycanın mövqelərinin möhkəmlənməsində böyük rol oynayır.

Layihənin baş direktoru Saltuk bəyin maraqlı açıqlamalarından biri də TANAP-ın tikintisi üçün nəzərdə tutulan vəsaitə maksimum qənaət edilməsi ilə bağlı məlumat oldu. O bildirdi ki, yekun investisiya qərarı qəbul ediləndə ümumi xərcləri 11,7 milyard dollar həcmində qiymətləndirilən layihənin tikinti mərhələsində maksimum səmərəlilik nəticəsində 45 faiz vəsaitə qənaətə nail olunmuş və layihə indiyə qədər 6,5 milyard dollarlıq sərmayəyə başa gəlmişdir. Layihənin miqyasını nəzərə alsaq, bu, həqiqətən tikinti işlərini reallaşdıran və onlara birbaşa nəzarəti həyata keçirən mütəxəssislərin böyük uğuru hesab edilməlidir. Sual doğura bilər ki, nədən böyük uğur hesab edilsin?

Meqalayihə rəqəmlərdə

CQD-nin əsas seqmenti olan TANAP Türkiyənin Gürcüstan sərhədində yerləşən Ərdahan şəhərinin Posof qəsəbəsi Türkgözü kəndindən başlayaraq Ərdahan, Qars, Ərzurum, Ərzincan, Bayburt, Gümüşhanə, Giresun, Sivas, Yozqat, Kırşehir, Kırıkkale, Ankara, Əskişəhər, Bilecik, Kütahya, Bursa, Balıkesir, Çanaqqala, Təkirdağ və Ədirnə daxil olmaqla 20 şəhərdən keçirək Yunanıstan sərhədində, Ədirnənin İpsala qəsəbəsində Avropa ölkələrinə təbii qaz nəql edəcək TAP-a birləşir. Layihə çərçivəsində Türkiyə sərhədləri daxilində biri Əskişəhirdə, digəri Trakyada olmaqla, yerli təbii qaz nəqli şəbəkəsinə bağlanmaq üçün iki çıxış nöqtəsi vardır. TANAP sisteminin 2 xətdən ibarət 17,6 kilometri Mərmərə dənizindən keçən 1850 kilometrlik ana boru bir çox yerüstü obyektlərdən ibarətdir. Hazırda bu obyektlərə iki kompressor stansiyası daxildir və boru xəttinin daşıma potensialı 31 milyard kubmetrə yüksəldikdə kompressor stansiyalarının sayı 7-yə çatdırılacaqdır. Bu gün 4 ölçmə məntəqəsi, 2 qaz çıxış məntəqəsi, Türkiyədəki yerli və Avropadakı beynəlxalq təbii qaz şəbəkəsinin təmizlənməsi üçün 11 PİG stansiyası, 49 blok qapaq stansiyası da tam istismara verilmişdir.

Dağları, çayları, quru yollarını və dəmir yollarını aşaraq Mərmərə dənizinə çatan təbii qazın Asiyadan Avropaya səyahəti dəniz altında başa çatır. TANAP-ın dəniz keçidi hər biri təxminən 17,6 kilometr uzunluğunda, 90 santimetr diametrdə qoşa boru kəməri sistemindən ibarətdir. TANAP boru xəttinin keçdiyi ən yüksək nöqtə, 2760 metr olmaqla Ərzincan Qızıldağ mövqeyi və ən dərin nöqtəsi isə 65 metr olmaqla Çanaqqala boğazıdır. 1850 kilometrlik boru xətt boyunca 6 min 834 çay, quru yolu, dəmiryolu və s. xüsusi keçiddən adlayır. Üfüqi qazma üsulu ilə həyata keçilən 1103 metrlik Sakarya çay keçidi 140 santimetr diametrdə Avropanın bu üsulla həyata keçirilən ən uzun çay keçidi olmuşdur.

131 min 620 ədəd ana boru kəməri qaynağı yerinə yetirilən və 228 milyon 936 min 368 kilometr məsafə qət edilən layihədə boru xəttinin keçdiyi ən dik yamac 30 faiz mailliyə malik İlqar dağı olmuşdur. İnşaat işləri çərçivəsində həyata keçirilən qazıntı işlərinin ümumi həcmi təqribən 51 milyon kubmetrə çatmışdır.

Əlbəttə, bu qəbildən olan rəqəmlərin sayını kifayət qədər artırmaq olar. Amma məqsəd sadəcə rəqəmləri sadalamaq yox, minlərlə insanın həyata keçirdiyi işlərin miqyasını ictimaiyyətə çatdırmaqdır. Çünki TANAP bir qaz boru xətti layihəsi olsa da, onun həyata keçirilməsi dövründə qardaş ölkədə kəmərin keçdiyi ərazilərdə bir çox digər layihələr gerçəkləşdirilmişdir.

Şübhəsiz, TANAP-ın gerçəkləşməsi çərçivəsində yüzlərlə sosial və ətraf mühit investisiya proqramlarına da xeyli miqdarda vəsait sərf edilmişdir. Türkiyə ərazisində boru kəməri marşrutu üzərindəki şəhər, qəsəbə və kəndlərdə sosial-iqtisadi inkişafın sürətləndirilməsi və təbii ehtiyatların qorunması məqsədilə həyata keçirilən TANAP Sosial və Ətraf Mühit İnvestisiya Proqramı (SEIP) qardaş ölkədə özəl sektor vasitəsilə həyata keçirilmiş ən böyük sosial və ətraf mühit investisiya proqramlarından biridir. Proqramın yüksək səmərəliliklə həyata keçirilməsi məqsədilə 3 müxtəlif maliyyələşdirmə mexanizmi tətbiq edilmişdir: birbaşa qrant, birbaşa investisiya və proqram töhfə vəsaitləri ilə ümumilikdə 20 şəhər, 67 qəsəbə və 600 kənddə təxminən 1000 layihə dəstəklənmişdir. Biz bu layihələr haqqında yaxın vaxtlarda daha geniş və ətraflı məlumat verməyi nəzərdə tutduğumuz üçün, onların üzərində çox dayanmaq istəmirik.

TANAP Azərbaycan qazını Avropaya çatdırmağa tam hazırdır

Mətbuat konfransından dərhal sonra Azərbaycan qazını Avropaya daşıyacaq TANAP-ın Ədirnənin İpsaladakı kompressor və MS4 ölçmə məntəqəsinə yollandıq. Məhz bu məntəqədə TANAP Avropa ölkələri üçün nəzərdə tutulan Azərbaycan qazını TAP qaz boru xəttinə ötürəcək.

İki saatdan artıq davam edən mətbuat konfransından sonra 4 saatlıq yol nə qədər üzücü görünsə də müstəqil Azərbaycanın həyatında böyük tarixi hadisəyə çevrilmiş bu meqalayihənin gerçəklikləri ilə yaxından tanış olmaq təkcə mənim üçün yox, 22 nəfərlik heyətimizin hər bir üzvü üçün son dərəcə böyük maraq doğururdu. Kompressor stansiyasındakı ilk gördüklərimizdən biri inzibati binanın önündə dalğalanan üçrəngli dövlət bayrağımız oldu. Nümayəndə heyətini qarşılayanlar arasında bizə doğma Azərbaycan dilində qarşılayan Hikmət Məmmədlinin olması lap yerinə düşdü. Hikmət İpsalada çalışan TANAP-ın əməliyyatlar, təmir və bütünlük üzrə qrup müdirinin müavini vəzifəsində çalışır.

Bizim üçün əvvəlcədən hazırlanmış xüsusi formanı geyindikdən sonra təhlükəsizlik qaydaları və kompressor stansiyası ilə tanışlıq məqsədilə qısa toplantı keçirildi. Suallarımızı daha çox Hikmət Məmmədliyə ünvanladıq ki, sorğularımız daha dəqiq anlaşılsın. Toplantıda və ondan sonra kompressor stansiyası ilə tanışlıq zamanı baş direktor Saltuk Düzyol Transanadolu Təbii Qaz Boru Kəmərinin gündəlik ötürücülük qabiliyyəti haqqında məlumat verərək bildirdi ki, layihə işə düşəndən – 2018-ci il iyunun 30-dan 2019-cu il iyunun 30-a qədər Türkiyənin BOTAŞ şirkətinə 1,87 milyard kubmetr qaz təhvil verilmişdir. Yəni boru xəttilə ilk kommersiya məqsədli təbii qaz 2018-ci il iyunun 30-da nəql edilməyə başlanmışdır. İyulun 1-dən boru xəttinin illik qaz ötürücülük qabiliyyəti 3,8 milyard kubmetrə yüksəlmiş və nəticədə 2019-cu il sentyabrın 30-a qədər TANAP üzərindən Türkiyəyə nəql olunan qazın həcmi 2,7 milyard kubmetrə çatmışdır. Azərbaycan tərəfi ilə anlaşmaya görə 2020-ci il iyulun 1-nə qədər Türkiyəyə 5,7 milyard kubmetr qaz təslim ediləcək. Avropaya gəldikdə isə, TANAP vasitəsilə TAP kəmərinə 2020-ci il iyulun 1-dən dekabrın 31-ə qədər 6,1 milyard, 2021-ci il yanvarın 1-dən 2021-ci il martın 31-nə qədər 6,2 milyard, 2021-ci il aprelin 1-dən dekabrın 31-ə qədər 7,2 milyard, 2022-ci il iyunun 1-dən isə sabit olaraq 10, 2 milyard kubmetr qaz ötürüləcək.

Tanış olduğumuz kompressor stansiyasından Cənub Qaz Dəhlizinin sonuncu mərhələsi olan TAP-a qədər nə qədər məsafə olduğunu soruşduq. Hikmət Məmmədli bildirdi ki, məsafə cəmi 5 kilometrdir və bu xətt də tam hazırdır. Yəni 2018-ci il noyabrın 8-9-da TANAP Türkiyə-Yunanıstan sərhədindəki Meriç çayı sahilində başa çatdırılıb və TAP təbii qaz boru xətti layihəsi ilə TANAP arasında qızıl qaynaq həyata keçirilib. Kompressor stansiyasının texniki göstəricilərinə gəldikdə isə H.Məmmədli bildirdi ki, stansiya sutka ərzində 30 milyon kubmetr qazı təmizləyib yola salmaq gücündədir.

Baş direktor şərhlərində qeyd etdi ki, dizaynı ən azı 25 ilə nəzərdə tutulan TANAP bu müddətdə əsas pay sahibləri tərəfindən idarə olunacaq. TANAP-ın potensial qaz nəqli gücünə gəldikdə isə onun ilkin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetr təbii qazdır. Bunun 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri isə Avropaya nəql olunacaq. Bazarın tələbatından asılı olaraq bunu 31 milyard kubmetrə çatdırmaq nəzərdə tutulur. Saltuk bəy, həmçinin qeyd etdi ki, TANAP boru xətti ən son texniki nailiyyətlər əsasında tikilmiş və müasir dünya standartlarına tam uyğun qurulmuşdur.

TANAP Cənub Qaz Dəhlizinin bel sütunudur

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Enerjinin İpək yolu" adlandırdığımız Trans-Anadolu Təbii Qaz Boru Kəmərini Cənub Qaz Dəhlizinin bel sütunu adlandırır və bu bel sütununun polad kimi möhkəm olması üçün öz dəstəyini heç zaman əsirgəmir. TANAP-ın baş direktoru Saltuk Düzyol Türkiyə Prezidentinin TANAP-a göstərdiyi yüksək diqqətdən bəhs edərək fikirini qısaca belə ifadə etdi: "Sayın cümhur aşqanı Rəcəb Tayyib Ərdoğanın TANAP-ın yoluna çıxa biləcək əngəllərin ortadan qaldırılması üçün xüsusi göstərişi var". Yəni TANAP-a heç bir əngəl ola bilməz və olarsa onun dərhal aradan qaldırılmasına çalışacaqlar.

Bu, heç də təsadüfi deyil, çünki Prezident Rəcəb Tayyib Ərdoğan bu meqalayihənin istər Türkiyə, istər Azərbaycan, istərsə də Avropa üçün necə mühüm əhəmiyyət kəsb etdiyini yaxşı bilir. Əgər nəzərə alsaq ki, Xəzər dənizi qazını Gürcüstan və Türkiyə üzərindən Avropaya daşımağı əsas götürən şaxələnmiş Cənub Qaz Dəhlizi layihəsi 3500 kilometrdən çox uzanaraq yeddi ölkədən keçir, o zaman bunun tən yarısından çoxunu təşkil edən TANAP-ın nə qədər vacib olduğu öz-özünə aydın olur.

2018-ci il iyunun 12-də TANAP-ın açılışından dərhal sonra Avropa Komissiyasının enerji ittifaqı üzrə vitse-prezidenti Maroş Şefçoviç açıqlamasında bildirmişdi: "Azərbaycandan Avropa İttifaqına qazın nəqli marşrutunun – Cənub Qaz Dəhlizinin yaradılması Avropa İttifaqının enerji təhlükəsizliyi üçün strateji baxımdan mühüm əhəmiyyət kəsb edir. Bizim enerji nəqlimizi və onun daşınması marşrutlarını diversifikasiya etməklə, Cənub Qaz Dəhlizi Avropa İttifaqının enerji təhlükəsizliyi, xüsusilə də onun daha həssas bölgələri, Cənub-Şərqi Avropa və Cənubi İtaliya üçün mühüm strateji əhəmiyyət daşıyır. Bizim hamımız Xəzər regionu ilə Avropa İttifaqı bazarı arasındakı bu "körpüdən" yalnız uduruq".

Jurnalist heyətinin tərkibində olan Neft Tədqiqatları Mərkəzinin rəhbəri, neft-qaz məsələləri üzrə ekspert İlham Şabanla layihənin Azərbaycan üçün hansı cəhətdən daha çox önəm daşıdığı barədə fikir mübadiləsi edərkən o dedi: "TANAP, mən deyərdim ki, Azərbaycanın XXI əsrdə dünya bazarında özünü tanıdacağı yeni bir xammal markasıdır. "Şahdəniz" yatağının istismara verilməsi ilə Azərbaycan adını iri qaz hasilatçısı ölkələri sırasına yazmağa müvəffəq oldu, TANAP-la isə öz qazının böyük bazarlara uzunmüddətli, sabit çıxmasını təmin edəcək nəhəng qaz infrastrukturunun əsas halqasını yaratmış oldu. Yəni TANAP 2018-ci ilin 30 iyunundan "Şahdəniz-2" qazının satışına səbəb oldu, 2020-ci ildən isə Azərbaycan qazının Avropa bazarlarına çatdırılmasının daşıyıcısına çevriləcək. TANAP olmasaydı, Azərbaycanın və gələcəkdə Xəzərin iri qaz resurslarının işlənməsi arzu olaraq qalacaqdı. Çünki qaz yataqları o zaman işlənməyə başlanır ki, onun uzunmüddətli alıcıları və bu xammalı istehlakçıya çatdıracaq infrastruktur olsun. Bu baxımdan TANAP beynəlxalq əhəmiyyətə malik bir layihədir və onun həyata vəsiqə qazanması ilk növbədə Azərbaycan və Türkiyə dövlət başçılarının siyasi iradəsindən asılı olub".

Həmkarımın söylədiklərinin təsdiqi kimi Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın kəmərin açılışında söylədiyi aşağıdakı fikirlə qeydlərimi yekunlaşdırmaq istəyirəm: **"TANAP ortaq baxışımızın ən son bəhrəsidir. Enerji bazarında yaşanan dəyişikliyə və ehtiyaca cavab verən TANAP, eyni zamanda, qarşıdakı illərdə həyata keçirəcəyimiz yeni layihələrin də müjdəsidir".**

Qeydlərimin əvvəlində də vurğuladım ki, TANAP-ın, eləcə də bütövlükdə Cənub Qaz Dəhlizinin gerçəkləşməsində Azərbaycan Prezidenti İlham Əliyevin misilsiz xidmətləri olmuşdur. Bunu Türkiyədə olduğumuz müddətdə bu layihədə çalışan bir çox mütəxəssislərdən dönə-dönə eşitdik. Amma bu gerçəyi ən parlaq ifadə edən yenə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan olmuşdur: "... sözlərimi bitirərkən dəyərli qardaşım Əliyevə göstərdiyi liderliyə görə bir daha təşəkkür edirəm". Bəli, məhz qətiyyət və müdriklik göstərən xalqımızın lideri Prezident İlham Əliyevin müstəsna xidmətləri sayəsində gerçəkləşən TANAP layihəsi XXI əsrin enerji təhlükəsizliyi tarixinə Azərbaycan və Türkiyənin imzası kimi həkk olunmuşdur.



İlqar RÜSTƏMOV,
"Xalq qəzeti"

Bakı – İstanbul – İzmir –Bakı